## İQTİSADİ VƏ SOSİAL COĞRAFİYA

© Z.N.Eminov

# AZƏRBAYCANDA KƏND ƏHALİSİNİN TƏBİİ ARTIMININ İNKİŞAF MEYİLLƏRİ VƏ NİZAMLANMASI İSTİQAMƏTLƏRİ

**Z.N.Eminov**

*AMEA akad. H.Ə. Əliyev adına Coğrafiya İnstitutu*
*AZ 1143, Bakı, H. Cavid pr., 115*

Uzun illər ərzində respublikada əhalinin sayının əsas artım mənbəyi kəndlərdə təbii artımın yüksək səviyyəsi olmuşdur. XX əsrin 60-cı illərində onun kəmiyyətinin yüksək olması kənd əhalisinin sayının yüksək templə artımını təmin etməklə yanaşı, şəhərlərə də miqrasiya axını çox olmuş, onların işçi qüvvəsi ilə təminatı həll edilmişdir.

Sonrakı dövrlərdə, xüsusilə müstəqillik illərində əhalinin maddi vəziyyətinin ağırlaşması təbii artımın kəskin şəkildə aşağı düşməsinə gətirib çıxartdı. Buna görə şəhərlər əhalinin əsas artım mənbəyindən məhrum olmaqla yanaşı, kəndlərdə də əhalinin sayı zəif templə artır.

Eyni zamanda, doğumun cins tərkibinin pozulması ümumi əhalinin cins tərkibinin də pozulmasına gətirib çıxarır. Ona görə kəndlərdə demoqrafik vəziyyətin nizamlanmasına ehtiyac vardır.

**Mövzunun aktuallığı**. Azərbaycanda kənd yaşayış məskənləri ölkənin bütün ərazilərində yayılmışdır. Kəndlər əhalinin məskunlaşmasında, ərazilərin mənimsənilməsi və istifadə edilməsində, kənd təsərrüfatı məhsullarının istehsalında əhəmiyyətli rol oynayır. Onlar, eyni zamanda, ölkənin demoqrafik potensialının cəmləndiyi əsas mərkəzlərdir və əhalinin sayının əsas artım mənbəyini təşkil edir. 2014-cü ilin əvvəlində ölkənin 9477,1 min nəfər əhalisinin 4431,7 min nəfəri və ya 46,8%-i kəndlərdə məskunlaşmışdı. 2013-cü ildə respublikada 4589 yaşayış məntəqəsi mövcud olmuşdur. Onlardan cəmi 78-i şəhər, 261-i qəsəbələrdir. Azərbaycanda kənd əhalisi 4250 kənd yaşayış məntəqəsində məskunlaşır. Bu kəndlərin idarə edilməsi üçün 1727 kənd ərazi dairəsi, 1718 bələdiyyə fəaliyyət göstərir. Kəndlər respublikada olan yaşayış məntəqələrinin 92,6%-ni təşkil edir [Azərbaycanın əhalisi, 2014].

Müstəqilliyin ilk illərindən başlanan iqtisadi çətinliklər, əhalinin məşğulluq səviyyəsinin aşağı düşməsi onun demoqrafik vəziyyətinə də öz mənfi təsirini göstərmişdir. Buna görə təbii artım xeyli azalmış, miqrasiya intensivliyi artmışdır. Yaranmış vəziyyət kəndlərdə əhalinin sayının artımına mənfi təsir göstərir və onun tempi getdikcə azalır. Eyni zamanda, aparılan iqtisadi islahatlar kəndlərin iqtisadi bazasının formalaşmasına mənfi təsir göstərmişdir. Yaradılan fermer təsərrüfatları iqtisadi baza funksiyasını yerinə yetirə bilmir, kənd əhalisinin məşğulluqla bağlı problemləri hələ də qalmaqdadır. Ona görə kəndlərin sosial-iqtisadi və demoqrafik inkişafının təmin edilməsi üçün mövcud problemlərin elmi təhlilinin aparılması, daha ciddi tədbirlərin həyata keçirilməsi zəruridir.

**Mövzunun öyrənilməsi səviyyəsi**. Respublika əhalisinin təbii və mexaniki artımı, məskunlaşması, onun formalaşmasına təsir göstərən amillər və nizamlanması istiqamətləri XX əsrin 60-cı illərindən sonra öyrənilmişdir. Bu sahədə Ş.Y. Göyçaylı (1964), M.M.Allahverdiyev (1966), Ş.Q.Dəmirqayayev (1971), M.O.Sadıqov (1983), N.H.Əyyubov və E.Q.Mehrəliyev (1988), Ş.M.Muradov (2004), V.Ə.Əfəndiyev (2013), Z.N.Eminov (1997, 2005, 2012, 2013) və başqaları tədqiqat işləri aparmışlar [Azərbaycan Respublikasının coğrafiyası, 2013].

**Mövzunun izahı**. Əhalinin təbii artımına onun mütləq sayı, şəhər və kənd əhalisinin nisbəti, qadınların cəmiyyətdə mövqeyi, təhsil səviyyəsi və təsərrüfat sahələrində məşğulluğu, dinin cəmiyyətdə rolu və s. amillər təsir göstərir. XX əsrin 60-cı illəri Azərbaycanın kənd əhalisi arasında hər 1000 nəfərə görə doğum və təbii artım əmsallarının azalma meyilləri ilə fərqlənir, ölüm əmsalları isə onillik ərzində sabit qalmışdır. Kənd əhalisi arasında çoxuşaqlılıq yayıldığına görə 60-cı illərdə doğum əmsalı əvvəlki dövrlərə nisbətən yüksək səviyyədə olaraq qalmışdır. Bununla yanaşı, 40-cı illərdə təbii artımın aşağı səviyyədə olduğu vaxtlarda doğulmuş uşaqlar artıq nikah yaşına çatdığına görə fertil yaşlı qadınların sayı da az olmuşdur. Bu dövrdə yeni evlənənlərin sayı da xeyli azalmışdır. Kənd əhalisi arasında 1963-1970-ci illərdə nikah əmsalı 10,8-dən 5,6-ya enmiş və ya 2,0 dəfədən çox azalmışdır [Azərbaycan demoqrafik göstəriciləri, 2012].

1961-ci ildə respublikanın ümumi əhalisi arasında doğum əmsalı 42,1, təbii artım əmsalı 35,4 səviyyəsində olmuşdur. 1970-ci ildə ölüm əmsalının (hər 1000 nəfərə görə 6,7) sabit qaldığı

şəraitdə doğum əmsalı 29,2-yə, təbii artım əmsalı 22,5-ə enmişdir. On il ərzində doğum əmsalı 30,6%, təbii artım əmsalı 36,4% azalmışdır.

Kəndlərdə təbii artımın ənənəvi yüksək göstəriciləri 60-cı illərdə də özünü göstərir. Bu mənada respublikanın kənd əhalisi arasında 1961-ci ildə doğum əmsalı 49,4, təbii artım əmsalı 42,8 olmuşdur. Bu dövrdən sonrakı on il ərzində (1960-1970) bu göstəricilər doğum əmsalı üzrə 34,1-ə, təbii artım üzrə 27,2-yə enmişdir. Təhlil aparılan dövrdə doğum səviyyəsi 31,0%, təbii artım səviyyəsi 36,5% azalmışdır. Qeyd etmək lazımdır ki, ümumi və kənd əhalisi arasında təbii artım göstəriciləri eyni səviyyədə azalmışdır.

60-cı illərin birinci yarısı kənd əhalisi arasında qeydə alınan ən yüksək doğum göstəriciləri ilə fərqlənir. Bu dövrdə (1961-1966) kəndlərdə 100,0 min nəfərdən çox uşaq doğulmuşdur. Onilliyin ikinci yarısında doğumun azalmasına ailələrdə uşaqların sayının azalması ilə yanaşı, müharibədən sonrakı illərdə doğumun aşağı səviyyəsi də təsir göstərmişdir. Bir neçə il ərzində doğulan uşaqların sayı 100,6 min nəfərdən 87,7 min nəfərə qədər azalmışdır. 1961-ci ildə respublikada doğulan uşaqların 59,8%-i, 1970-ci ildə 58,1%-i kənd əhalisinin payına düşmüşdür [Azərbaycanın demoqrafik göstəriciləri, 2013].

Əvvəlki onillikdən fərqli olaraq 60-cı illərdə kəndlərdə ölənlərin sayı az da olsa artmışdır. Belə ki, 1961-1970-ci illərdə kənd əhalisi arasında bu göstərici 13521 nəfərdən 17690 nəfərə yüksəlmiş və ya 30,8% artmışdır. Belə vəziyyətdə kəndlərdə təbii artım göstəricilərinin azalması sonrakı illərdə də davam etmişdir. Belə ki, 1961-ci ildə kəndlərdə əhalinin sayı 88496 nəfər, 1970-ci ildə 70001 nəfər artmışdır. On ildə təbii artım 18495 nəfər və ya 20,9% aşağı enmişdir. Əhalinin təbii artımında kənd əhalisinin payı 61,8%, 1970-ci ildə 60,1% olmuşdur [Mehrəliyev, 2003].

Artıq 80-ci illərdə şəhərlərin iqtisadi və sosial inkişaf sürəti zəifləmiş, bu bazanın kənd əhalisini qəbul etmək potensialı azaldığına görə respublikadan kənara miqrasiya axını güclənmişdir. Məhz bu da respublikada şəhər əhalisinin artımını ləngitmiş, urbanizasiya prosesləri zəif templə getmiş, onun səviyyəsi uzun illər dəyişməz olaraq qalmışdır. Belə vəziyyət bu gün də davam edir. Abşerondan kənar regionlarda şəhərlərin zəif sosial-iqtisadi bazası nəinki ətraf məntəqələrdən əhalini qəbul edə bilmir, hətta özünün təbii yol ilə artan əhalisini yerlərdə saxlamaq, onları iş yerləri və mənzillərlə təmin etmək potensialına da malik deyildir.

50-60-cı illərdə respublikanın kənd əhalisi arasında müşahidə olunan yüksək təbii artım ilkin dövrlərdə kənd əhalisinin artımını təmin etməklə yanaşı, sonrakı dövrlərdə şəhər əhalisinin sayının da artmasına və intensiv miqrasiyaların başlanmasına səbəb olmuşdur. 1970-1990-cı illərdə orta hesabla hər il miqrasiya hesabına kəndlərdə əhalinin sayı 25-30 min nəfər azalmışdır. Kənd əhalisinin miqrasiyası hesabına şəhər məntəqələrində əhalinin sayı 70-ci illərdə orta hesabla ildə 15-25 min nəfər artmış, qalan əhali respublikanı tərk etmişdir [Azərbaycanın demoqrafik göstəriciləri, 2013].

XX əsrin 70-ci illərinin birinci yarısında ölkənin ümumi əhalisi, o cümlədən kənd əhalisi arasında hər 1000 nəfərə görə doğum və təbii artım əmsallarında azalma meylləri müşahidə edilsə də, onilliyin ikinci yarısını bu göstəricilərin dinamikasında sabitlik dövrü kimi qəbul etmək olar.

1971-ci ildə ümumi əhali üzrə doğum əmsalı 27,7, təbii artım əmsalı 21,2, 1976-1980-ci illərdə doğum əmsalı 25,2 - 25,5, təbii artım əmsalı 18,1 - 18,2 arasında dəyişmişdir. Kəndlərdə əhalinin təbii artım göstəriciləri bu dövrdə nisbətən yüksək səviyyəsi ilə fərqlənmişdir. 1971-ci ildə kəndlərdə hər 1000 nəfərə görə doğum əmsalı 31,9, təbii artım əmsalı 25,2 səviyyəsində qeydə alınmışdır. Onilliyin ikinci yarısında ölüm əmsalının müəyyən qədər artması baş vermişdir, yəni 1976-1980-ci illərdə bu əmsal 6,8-dən 7,3-ə yüksəlmişdir. Lakin doğum və təbii artım əmsallarında nisbi sabit dinamika müşahidə edilir. Bu illərdə təbii artım əmsalı hər 1000 nəfərə görə 20,0 - 21,0 arasında dəyişmişdir.

1970-ci illərdə kənd əhalisi arasında doğulan uşaqların sayında, ölənlər və təbii artım göstəricilərində əsaslı dəyişikliklər olmamışdır. Bu dövrdə doğulan uşaqların sayı 75,0 - 80,0 min nəfər arasında, təbii artım 57,0 - 59,0 min nəfər arasında dəyişmişdir. Eyni sözləri ölənlərin sayı haqqında da demək olar.

1971-ci ildə respublikada doğulan uşaqların 57,0%-i, təbii artımın 58,7%-i, 1980-ci ildə müvafiq olaraq doğulan uşaqların 51,2%-i, təbii artımın 52,1%-i kənd əhalisinin payına düşmüşdür. Rəqəmlər göstərir ki, təhlil aparılan müddətdə şəhərlərdə doğulan uşaqların sayı və nəticədə onların əhalinin sayının artımında rolu yüksəlmişdir. Çünki 60-cı illərdə müşahidə olunan yüksək təbii artım, yuxarıda qeyd edildiyi kimi, şəhərlərə miqrasiyanın intensivləşməsinə səbəb olmuşdur. Bu dövrdə şəhərlərdə cavan yaşlı əhalinin sayının artması nikah yaşlı insanların sayının artmasına və doğumun yüksəlməsinə gətirib çıxarmışdır.

1970-1979-cu illərdə şəhər yerlərində 15-19 yaşlı əhalinin sayı 260,2 min nəfərdən 408,6 min

nəfərə qədər və ya 157,0%, 20-24 yaşlı əhalinin sayı 194,2 min nəfərdən 371,6 min nəfərə qədər və ya 191,4%, 25-29 yaşlı əhalinin sayı 141,1 min nəfərdən 254,4 min nəfərə qədər və ya 180,3% artmışdır. Kənd əhalisi arasında 15-19 yaşlı əhalinin sayı 206,1 min nəfərdən 403,0 min nəfərə qədər və ya 195,5%, 20-24 yaşlı əhalinin sayı 100,7 min nəfərdən 249,0 min nəfərə qədər və ya 247,3%, 25-29 yaşlı əhalinin sayı 92,4 min nəfərdən 147,6 min nəfərə qədər və ya 159,7% yüksəlmişdir [Azərbaycanın demoqrafik göstəriciləri, 2013].

Bu dövrdə şəhərlərdə nikahların sayı 21,5 mindən 31,9 minə qədər və ya 148,4%, kəndlərdə 14,4 mindən 28,2 minə qədər və ya 195,8% yüksəlmişdir [Azərbaycanın demoqrafik göstəriciləri, 2013]. Kəndlərdə nikahların çox olması əvvəlki dövrlərdə əhalinin sayının intensiv şəkildə artması, onların bu dövrdə nikah yaşına çatması ilə əlaqədardır. Yaranmış demoqrafik vəziyyət sonrakı dövrlərdə də əhalinin sayının davamlı olaraq artmasını təmin etmişdir. Kəndlərdə müşahidə edilən yüksək artım tempi və bir demoqrafik nəsildən sonra başlanan miqrasiyalar şəhərlərdə də əhalinin sayının çoxalmasına əhəmiyyətli dərəcədə təsir göstərmişdir.

Bununla yanaşı, hər bir nəsildən sonra təbii artımın səviyyəsi müəyyən qədər aşağı enmişdir. Az vaxtdan sonra digər ictimai-siyasi və sosial-iqtisadi amillərin təsiri ilə azalmalar özünü daha qabarıq şəkildə göstərmişdir.

1980-ci illər Azərbaycanın demoqrafik inkişafında daha sabit olması ilə fərqlənir. Davamlı olan iqtisadi inkişaf, mərkəzi hökumətin həyata keçirdiyi fəal sosial-demoqrafik siyasət, dövlətin analara və uşaqlara yüksək səviyyədə göstərdiyi qayğı və müavinətlərin verilməsi, mənzillərlə təminatın dövlət tərəfindən həyata keçirilməsi, mənzil-kooperativ tikintisinin geniş tətbiq edilməsi, kənd təsərrüfatında və kənd məntəqələrinin inkişafında gedən irəliləyişlər əhalinin iş yerləri ilə təminatına şərait yaradır, onların məvacibləri, əldə edilən gəlirlər yaşayışın təminatı, uşaqların saxlanılması, tərbiyəsi, boya-başa çatdırılması üçün kifayət edirdi. Gənc və çoxuşaqlı ailələrə verilən müavinətlər və müəyyən edilən güzəştlər təbii artımın yüksək göstəricilərinin formalaşmasına şərait yaradırdı.

1980-1990-cı illərdə Azərbaycanın ümumi əhalisi üzrə hər 1000 nəfərə görə doğum əmsalı 25,0-27,0 arasında, o cümlədən kənd əhalisi arasında 28,0-30,0 olmuşdursa, təbii artım əmsalları müvafiq olaraq 18,0-20,0 və 22,0-23,0 arasında dəyişmişdir. Ölüm əmsalları həm ümumi, həm də kənd əhalisi arasında 6,4-6,9 arasında dəyişmişdir [Eminov, 2005].

XX əsrin 80-ci illərinin sonunda keçmiş SSRİ məkanında, o cümlədən Cənubi Qafqazda başlanan ictimai-siyasi gərginlik əhalinin həyat şəraitinə, məşğulluğuna, onun strukturuna, əldə edilən gəlirlərin formalaşmasına mənfi təsir göstərməyə başladı. Lakin baş verən proseslər və davam edən qeyri-müəyyən vəziyyət demoqrafik göstəricilərə bir neçə ildən sonra təsir göstərməyə başladı. Bu səbəbdən ümumi və kənd əhalisi arasında 80-ci illərdə doğulan uşaqların sayı və təbii artımın səviyyəsi müəyyən qədər artsa da, şəhər əhalisi arasında göstəricilər sabit qalmış və ya az dəyişmişdir. Bu müddən ərzində (1981-1990) respublikada doğulan uşaqların sayı 164577 nəfərdən 182989 nəfərə qədər, təbii artım 121679 nəfərdən 140170 nəfərə qədər yüksəlmişdir. Doğulan uşaqların sayı 10 ildə 11,21%, təbii artım 15,2% artmışdır. Bu prosesdə əhalinin sayının artımı da əhəmiyyətli rol oynamışdır.

80-ci illərdə təhlil edilən demoqrafik proseslər və formalaşan əhali artımı əsasən kənd əhalisinin hesabına getmişdir. Yəni 1981-1990-cı illərdə kəndlərdə doğulan uşaqların sayı 81106 nəfərdən 96981 nəfərə qədər və ya 15,3%, təbii artım 64136 nəfərdən 75966 nəfərə qədər və ya 18,5% artmışdır. Ölənlərin sayı, demək olar ki, 21,0-22,0 min nəfər arasında sabit qalmışdır. 1981-ci ildə respublikada doğulan uşaqların 51,1%-i, təbii artımın 52,7%-i, 1990-cı ildə doğulan uşaqların 53,0%-i, təbii artımın 54,2%-i kənd əhalisinin payına düşmüşdür. Alınan nəticələr də kəndlərdə təbii artımın yüksək templə çoxalmasını göstərir.

1991-ci ildən sonrakı dövrü müstəqillik mərhələsi kimi ayırmaq olar. Dövrün ilk illərində keçid mərhələsinin başlanması ilə yaranan çətinliklər demoqrafik göstəricilərdə də geriləmələrə səbəb olmuşdur. Keçid dövründə, ilk növbədə, doğulan uşaqların sayı və nəticədə ailələrdə uşaqların sayı azalmış, təbii artım bir neçə dəfə aşağı enmiş, miqrasiyalar yüksəlmişdir. Əhalinin maddi gəlirlərinin azalması mənzil şəraitinin çətinləşməsinə, onun təminatında ciddi problemlərin yaranmasına gətirib çıxarmışdır. Dövlət təminatının minimuma enməsi, analara və uşaqlara verilən güzəştlərin və müavinətlərin aşağı düşməsi demoqrafik inkişafın iqtisadi və sosial bazasını zəiflətmişdir. Nəticədə 1991-2000-ci illərdə ölkədə hər 1000 nəfərə görə doğum əmsalı 26,6-dan 14,7-yə qədər və ya 44,7%, təbii artım əmsalı 20,3-dən 8,8-ə qədər və ya 2,3 dəfə aşağı enmişdir. Ölüm əmsallarının da azalması (hər 1000 nəfərə görə 6,3-dən 5,9-a düşmüşdür) təbii artımın

daha intensiv aşağı düşməsinə gətirib çıxarır [Azərbaycanın demoqrafik göstəriciləri, 2013]. Oxşar demoqrafik durum kənd əhalisi üçün də səciyyəvidir. Belə ki, 1991-2000-ci illəri əhatə edən on il müddətində kəndlərdə hər 1000 nəfərə görə doğum əmsalı 30,2-dən 17,3-ə qədər və ya 42,7%, təbii artım əmsalı 23,8-dən 11,3-ə qədər və ya 2,1 dəfə azalmışdır. Azalmalar ölüm əmsallarında da müşahidə olunur (1-ci cədvəl).

**1-ci cədvəl**

**Kənd əhalisinin təbii artım göstəriciləri**

| İllər | Mütləq hesabla, nəfər | | | Hər 1000 nəfərə görə | | |
|---|---|---|---|---|---|---|
| | Doğum | Ölüm | Təbii artım | Doğum | Ölüm | Təbii artım |
| 1991 | 101032 | 21467 | 79565 | 30,2 | 6,4 | 23,8 |
| 1992 | 96771 | 25079 | 71692 | 28,3 | 7,3 | 21,0 |
| 1993 | 92835 | 25624 | 67211 | 26,6 | 7,3 | 19,3 |
| 1994 | 85429 | 26549 | 58880 | 24,1 | 7,5 | 16,6 |
| 1995 | 78260 | 24475 | 53785 | 21,7 | 6,8 | 14,9 |
| 1996 | 73638 | 23554 | 50084 | 20,1 | 6,4 | 13,7 |
| 1997 | 75021 | 23034 | 51987 | 20,2 | 6,2 | 14,0 |
| 1998 | 70779 | 22836 | 47943 | 18,7 | 6,0 | 12,7 |
| 1999 | 67456 | 23467 | 43989 | 17,5 | 6,1 | 11,4 |
| 2000 | 67363 | 23171 | 44192 | 17,3 | 6,0 | 11,3 |
| 2001 | 60680 | 21902 | 38778 | 15,5 | 5,6 | 9,9 |
| 2002 | 60982 | 22917 | 38065 | 15,4 | 5,8 | 9,6 |
| 2003 | 62410 | 24002 | 38408 | 15,8 | 6,1 | 9,7 |
| 2004 | 72583 | 23701 | 48882 | 18,4 | 6,0 | 12,4 |
| 2005 | 77539 | 24615 | 52924 | 19,5 | 6,2 | 13,3 |
| 2006 | 78405 | 24667 | 53738 | 19,5 | 6,1 | 13,4 |
| 2007 | 78861 | 25493 | 53368 | 19,4 | 6,3 | 13,1 |
| 2008 | 78163 | 24893 | 53270 | 19,1 | 6,1 | 13,0 |
| 2009 | 77439 | 24824 | 52615 | 18,7 | 6,0 | 12,7 |
| 2010 | 83891 | 25211 | 58680 | 20,0 | 6,0 | 14,0 |
| 2011 | 90533 | 25195 | 65338 | 21,3 | 5,9 | 15,4 |
| 2012 | 88105 | 25440 | 62665 | 20,5 | 5,9 | 14,6 |
| 2013 | 86242 | 25520 | 60722 | 19,9 | 5,9 | 14,0 |

***Mənbə**: Cədvəl "Azərbaycanın əhalisi – 2013" (Bakı, DSK, 2014, səh. 25-27) statistik məcmuəsi əsasında tərtib edilmişdir.*

Geriləmələr demoqrafik vəziyyəti əksetdirən mütləq göstəricilərdə də özünü göstərir. Onlar daha intensiv şəkildə baş vermişdir. 1991-ci ildə kənd əhalisi üçün son 50 ildə doğulan uşaqların ən yüksək səviyyəsi qeydə alınmış və 101,0 min nəfər həddinə çatmışdır. 2000-ci ilə qədər bu göstərici 67,4 min nəfərə enmiş və ya 33,3% azalmışdır. Təbii artımın səviyyəsi isə 79,6 min nəfərdən 44,2 min nəfərə enmiş və ya 44,5%-ə qədər aşağı düşmüşdür. 1991-ci ildən başlayaraq ölənlərin sayında da qismən geriləmələr müşahidə edilir.

1991-ci ildə ölkədə doğulan uşaqların 53,6%-i, təbii artımın 54,6%-i kənd əhalisinin payına düşmüşdür, 2000-ci ildə bu göstəricilər müvafiq olaraq doğulan uşaqlar üzrə 57,6%, təbii artım üzrə 62,9% olmuşdur. On il ərzində şəhər əhalisi arasında təbii artım 2,5 dəfə, hər 1000 nəfərə görə əmsalı isə 2,7 dəfə azalmışdır.

1990-cı illərdə şəhərlərdən, əsasən də Abşerondan rusların, ukraynalıların, ermənilərin, yəhudilərin və digər rusdilli əhalinin, sonrakı mərhələdə aborigen əhalinin miqrasiyası, kəndlərdən olan miqrasiyaların azalması təbii artımın da aşağı enməsinə səbəb olmuşdur. Nəticədə onun əsas hissəsi kəndlərin payına düşmüşdür. Məhz buna görə həmin dövrdə şəhər və kənd əhalisi arasında təbii artım göstəricilərindəki böyük fərqlər qalmışdır. Ölkədə fəal demoqrafik siyasət aparılmadığına görə belə vəziyyət sonrakı dövrlərdə də əhalinin təbii artımına mənfi təsir etmişdir və bu təsir isə özünü uzun müddət göstərəcəkdir.

90-cı illərin ortalarından sonra başlanan iqtisadi və sosial islahatlar öz nəticələrini 2000-ci illərin əvvəllərində verməyə başlamışdır. Yeni iş yerlərinin yaradılması, fəaliyyəti dayanmış müəssisələrin bəzilərinin işinin bərpa edilməsi, yaşayış məntəqələrinin sosial-mədəni, mənzil-kommunal şəraitinin yaxşılaşdırılması sahəsində görülən tədbirlər, demoqrafik inkişaf haqqında yeni qanunvericilik aktlarının qəbul edilməsi bu sahədə prob-

lemlərin də həllinə öz müsbət təsirini göstərmişdir.

Lakin demoqrafik inkişafda müsbət meyillər 2000-ci illərin ortalarından sonra yaranmışdır. Artım prosesləri getsə də, doğum və təbii artım əmsallarının hazırkı həddi 1990-cı illərin səviyyəsindən geri qalır. Eyni vəziyyət doğulan uşaqların mütləq sayına və təbii artımına da aiddir. Odur ki, 2001-ci ildə hər 1000 nəfərə görə doğum əmsalı ümumi əhali arasında 13,7, kənd əhalisi arasında 15,5 olmuş, təbii artım əmsalı müvafiq olaraq bütün əhali üzrə 8,1, kənd əhalisi üzrə 9,9 olmuşdur. On il ərzində ölkədə demoqrafik vəziyyətin sabitləşməsi fonunda 2010-cu ildə kəndlərdə doğum əmsalı 20,0, təbii artım əmsalı 14,0-a qalxmışdır. Fərqləndirici və əlamətdar haldır ki, ölkənin ümumi və kənd əhalisi arasında doğum və təbii artım arasındakı fərqlər minimuma enmişdir. Ümumi əhali üçün doğum əmsalı 18,5, təbii artım əmsalı 12,5 olmuş, ölüm əmsalı (hər 1000 nəfərə 6,0) kənd əhalisi ilə eyni səviyyədə qalmışdır.

Son 10 ildə ölkədə ümumi əhali, o cümlədən kənd əhalisi arasında doğulan uşaqların sayı əhəmiyyətli dərəcədə yüksəlmişdir. 2001-ci ildə ölkədə 110,4 min nəfər uşaq doğulmuş, təbii artım 65,1 min nəfər təşkil etmişdir. Doğulan uşaqların 60,7 min nəfəri (55,0%-i) kənd əhalisinin, 49,7 min nəfəri (45,0%-i) şəhər əhalisinin payına düşür. Həmin ildə ölkənin kənd əhalisi arasında təbii artımın miqdarı 38778 nəfər (59,6%), şəhər əhalisinin arasında 26294 nəfər (40,4%) qeydə alınmışdır.

2010-cu ilə qədər təhlil aparılan on il ərzində doğulan uşaqların sayı 165643 nəfərə, təbii artımın səviyyəsi 112063 nəfərə yüksəlmişdir. Həmin ildə doğulan uşaqların 83891 nəfəri və ya 50,7%-i, təbii artımın 58680 nəfəri və ya 52,4%-i kənd əhalisinin payına düşmüşdür.

Əvvəlki dövrlərdən fərqli olaraq bu gün kəndlərdə təbii artımın payının azalması göstərir ki, burada təbii artım xeyli zəifləmişdir. Kəndlərdə yaşayan əhali arasında 2-3 uşaqlı ailələr böyük əksəriyyət təşkil edir. Bunu demoqrafik vəziyyəti əksetdirən digər göstəricilər də sübut edir.

Son iki ildə ölkənin kənd əhalisi arasında gedən demoqrafik proseslərdə 90-cı illərin böhranlı vəziyyəti öz təsirini göstərir, doğulan uşaqların sayı və təbii artım azalmağa başlayır. Belə vəziyyəti ölkənin ümumi əhalisi üzrə olan göstəricilərə də aid etmək olar. 2011-ci ildə kəndlərdə 90533 nəfər, 2013-cü ildə 86242 nəfər uşaq doğulmuş, təbii artım müvafiq olaraq 2011-ci ildə 65338 nəfər, 2013-cü ildə 60722 nəfər təşkil etmişdir. Ölkədə doğulan uşaqların sayında kənd əhalisinin payı 2011-ci ildə 51,4%, 2013-cü ildə 50,0% təşkil etmişdir. Təbii artım prosesində kənd əhalisinin payı isə 2011-ci ildə 53,4%, 2013-cü ildə 51,3% olmuşdur.

Kənd əhalisi arasında azalmalar özünü hər 1000 nəfərə görə olan əmsallarda da göstərir. Kəndlərdə hər 1000 nəfərə görə doğum əmsalı 2011-ci ildə 21,3, 2013-cü ildə 19,9, təbii artım əmsalı isə müvafiq olaraq 15,4 və 14,0 olmuşdur.

2013-cü ildə ümumi əhali arasında doğum əmsalı 18,6, təbii artım əmsalı 12,8 olmuş, ölüm əmsalı isə əvvəlki dövrlərə nisbətən azalmış və 5,8 səviyyəsinə enmişdir.

2000-ci illərin ilk illərindən başlayaraq əhalinin demoqrafik inkişafında sabitlik yaranmış, uşaqların sayı tədricən artmağa doğru getmişdir. Bu, əhalinin sayının artım tempinin də yüksəlməsinə gətirib çıxarır. Cərəyan edən proseslər şəhər və kənd əhalisi arasında eyni vaxtda getmişdir. Lakin bununla yanaşı, doğumun cins tərkibində olan uyğunsuzluq getdikcə artır, oğlanların doğulan uşaqlar arasında sayı intensiv şəkildə çoxalır. 2000-ci illərin ikinci yarısında bu fərq daha da artmışdır. 2001-2005-ci illərdə ölkədə 4,5-5,4 min nəfər, sonrakı 5 ildə 6,8-6,9 min nəfər çox oğlan uşağı doğulmuşdur.

2001-2012-ci illərdə ölkədə doğulan oğlan uşaqlarının sayı qızlara nisbətən 70317 nəfər, təbii artımda isə 61147 nəfər çox olmuşdur. Bu dövrdə doğulan oğlan uşaqlarının sayı 2001-2012-ci illərdə 32506 nəfərdən 47381 nəfərə qədər, qızların sayı 28174 nəfərdən 40724 nəfərə yüksəlmiş, 2012-ci ildə fərq oğlanların xeyrinə 6657 nəfər qeydə alınmışdır.

2000-ci illərdə kənd əhalisi arasında ölümün cins tərkibində olan fərqlər kişilərin çox olması hesabı ilə 500-600 nəfərdən 900 nəfərə qədər olmuşdur. Yalnız son bir neçə ildə bu göstərici 1200-1300 nəfərə yüksəlmişdir. Bu dövrdə kənd əhalisi arasında ildə 11,0-13,0 min nəfər kişi cinsli, 11,0-12,0 min nəfər qadın cinsli insan ölümü qeydə alınmışdır. Aşağı səviyyəli ölüm fərqləri ilə əlaqədar doğumun cins tərkibinin əsas xüsusiyyətləri təbii artım prosesində də özünü göstərir. Onun kəmiyyətinin artması ilə eyni vaxtda cins tərkibində olan fərqlər də çoxalır.

2001-ci ildən sonra təbii artım prosesində artan oğlanların sayı 21436 nəfərdən 2012-ci ildə 34057 nəfərə qədər, qızların sayı 17342 nəfərdən 2012-ci ildə 28608 nəfərə yüksəlmişdir. Təbii artımın cins tərkibində olan fərqlər 2001-2005-ci illərdə hər il 4,0-4,7 min nəfər, sonrakı 5 ildə 5,5-6,3 min nəfərə qədər olmuşdur.

**Nəticə.** Verilən rəqəmlər kəndlərdə təbii artımın azalmasını göstərir. Doğum və təbii artım

göstəricilərində kənd əhalisinin payının azalması kəndlərin demoqrafik inkişafında problemlərin yaranmasını əks etdirir. Ölkənin kənd əhalisinin təbii artımı azalmaqla yanaşı, şəhərlərə miqrasiyalar da artır. Lakin təbii artımın əsas demoqrafik prinsiplərinə uyğun olaraq şəhər əhalisi uzun müddət ərzində yüksək templə arta bilmir və yaxın illərdə azalma özünü göstərə bilər.

Ölkənin demoqrafik inkişafında gedən proseslər nəticəsində əhalinin cins tərkibində qadınların sayının üstünlüyü tədricən aşağı düşür. 1990-cı ildə hər 1000 kişiyə 1048 qadın düşürdüsə, 2000-ci ildə bu göstərici 1046, 2005-ci ildə 1032, 2010-cu ildə 1019-a enmişdir. Nəticədə ölkədə kişilər və qadınların sayı bərabərləşmə ərəfəsindədir, çox güman ki, bu, yaxın bir neçə ilə baş verə bilər. Artıq 1999-cu ilə nisbətən 2009-cu il siyahıyaalmasının nəticələrinə görə, Culfa, Sədərək, Şahbuz, Abşeron, Ağcabədi, Beyləqan, Daşkəsən, Göygöl, Qəbələ, Quba, Masallı, Saatlı, Şabran, Şəmkir, Tovuz rayonlarında kişilərin sayı qadınlardan çox olmuşdur [Azərbaycan Respublikası əhalisi 2009-cu il, 2010].

## ƏDƏBİYYAT


Azərbaycanın əhalisi – 2013. 2014. DSK, Bakı.

Azərbaycanın əhalisi – 2012. 2013. DSK, Bakı.

Azərbaycanın demoqrafik göstəriciləri - 2012. 2013. DSK, Bakı.

Azərbaycanın statistik göstəriciləri - 2011. 2012. DSK, Bakı.

Azərbaycan Respublikası əhalisinin 1999-cu il siyahıyaalmasının yekunları. I hissə. Əhalinin sayı, cins-yaş tərkibi. 2000. DSK, Bakı.

Azərbaycan Respublikası əhalisinin 2009-cu il siyahıyaalmasının yekunları. I hissə. Əhalinin sayı, yerləşməsi, cins, yaş tərkibi və nikah vəziyyəti. 2010. DSK, Bakı.

Azərbaycan Respublikasının coğrafiyası. II cild. 2013. Bakı, 501 s.

EMİNOV Z.N. 2005. Azərbaycanın əhalisi. Çıraq, Bakı.

MEHRƏLİYEV E.Q., ƏYYUBOV N.H., SADIQOV M.O. 1988. Azərbaycan SSR-də əhalinin məskunlaşması məsələləri. Elm, Bakı, 196 s.

MEHRƏLİYEV E.Q. 2003. Azərbaycan Respublikasında demoqrafik proseslərin regional təhlili. Elm, Bakı, 236 s.

EMİNOV Z.N. 2008. Azərbaycanın kənd təsərrüfatında və torpaqlardan istifadənin strukturunda baş verən dəyişikliklər. AMEA-nın “Xəbərlər”i, “Yer elmləri” seriyası, № 4, s.70-75.

ƏFƏNDİYEV V.Ə., EMİNOV Z.N. 2013. Müasir dövrdə Azərbaycanda kənd əhalisi və kənd yaşayış məntəqələrinin inkişaf xüsusiyyətləri. “Azərbaycanda coğrafiya elminin inkişafı” mövzusunda respublika elmi konfransı. BDU, s. 153-157.


## ТЕНДЕНЦИИ РАЗВИТИЯ И ПУТИ РЕГУЛИРОВАНИЯ ЕСТЕСТВЕННОГО ПРИРОСТА СЕЛЬСКОГО НАСЕЛЕНИЯ АЗЕРБАЙДЖАНА

**З.Н.Эминов**


Долгое время в республике основным источником роста численности населения был высокий уровень естественного прироста сельского населения. В 60-х гг. XX века его высокие показатели не только обеспечили высокие темпы роста численности сельского населения, но и миграционный отток их рабочей силы в города.

Вес последующий период, особенно в годы независимости, снижение уровня жизни привело к резкому уменьшению естественного прироста. Поэтому, города лишены основного источника роста численности населения, снижены темпы роста численности сельского населения. Вместе с тем, нарушена половая структура рождаемости, что приводит к нарушению полового состава всего населения. Поэтому, есть необходимость регулирования демографической ситуации в стране, особенно в селах. В статье проводятся анализы и разработаны рекомендации в этом направлении.


## TRENDENCY OF DEVELOPMENT AND WAYS OF REGULATION OF NATURAL GROWTH OF THE RURAL POPULATION OF AZERBAIJAN

**Z.N.Eminov**


For a long period, high natural increase rate among the rural population was the main source for population growth in the country. In 60s of the twentieth century, high natural increase rate was responsible for the rapid growth of rural population number, and the last process in its turn provided mass migration of labor forces towards the cities.

During the following period, especially in the years of independence, fall of level of living entailed sharp reduction in natural growth rate. Consequently, the cities became deprived of the source of population growth due to reduction in natural increase rate by rural places. In the meantime, sexual composition of the birth process is changed, which results in undesirable change in sex composition of the population. Therefore, it is necessary to regulate the demographic situation in the country, in particular among the rural population. The article deals with the analysis of these processes and related appropriate recommendations.